# AZƏRBAYCANDA ÜZÜMÜN SORT MÜXTƏLİFLİYİNİN QORUNUB SAXLANMASINA H.ƏLİYEVİN TÖHFƏSİ

**Xuraman Abasova*, Rauf Əsədullayev**

*AR KTN Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, Bakı*
**xuraman.abasova@mail.ru*

Heydər Əliyevin Azərbaycanda rəhbər olduğu dövrdə digər sahələrdə olduğu kimi, ekoloji problemlər və onların həlli daim diqqət mərkəzində saxlanılmışdır. Bu sahədə Ulu Öndər ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması, təbii sərvətlərdən səmərəli istifadə, ətraf mühitin mühafizəsi kimi məsələlərə xüsusi həssaslıqla yanaşıb. Adıgedən dövrdə ölkəmizdə ekoloji siyasətin yeni modeli yaradılmış, ətraf mühitin mühafizəsi sahəsində yeni konsepsiya formalaşdırılmışdır. Bu konsepsiyanın əsasını gələcək nəsillərə onların ehtiyaclarını təmin edə biləcək bir ekosistem miras qoymaqla, ölkənin iqtisadi potensialının qorunub saxlanması və davamlı inkişafını təmin etmək təşkil etmişdir. Bu sahədə həyata keçirilmiş sistematik tədbirlər nəticəsində ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm işlər görülmüş, böyük nailiyyətlərin əldə olunması mümkün olmuşdur.

Heydər Əliyev hələ keçən əsrin 70-80-ci illərində Azərbaycanın müstəqil bir dövlət olacağını öncədən görərək, bunun üçün tələb olunan əsasların yaradılması istiqamətində fədakarcasına çalışırdı. Onun hakimiyyətdə olduğu müddətdə Azərbaycanda kənd təsərrüfatının, o cümlədən üzümçülüyün inkişafına xüsusi diqqət yetirilirdi. Ölkəmizdə üzümün istehsalı və emalı üçün, şərab, qurudulmuş üzüm, sirkə, bəhməz, abqora və sair məhsulların istehsalı üçün çox əlverişli torpaq-iqlim şəraiti mövcuddur.

Azərbaycanda üzümçülük sahəsi öz zirvəsinə məhz H.Əliyevin rəhbərliyi illərində (1969-1982) çatmışdır. Bu dövrdə ölkədə üzümlüklərin sahəsi ildən-ilə artırılaraq, məhsuldarlıq yüksəlir, üzümün keyfiyyəti yaxşılaşırdı. H.Əliyevin bu sahəyə göstərdiyi qayğının əsas bəhrəsini Azərbaycan xalqı 1984-cü ildə gördü. Bu ildə üzümlüklərin ümumi sahəsi 286 min ha, istehsal edilmiş üzümün miqdarı 2,12 mln ton, hektardan məhsuldarlıq isə 100 sentnerə çatmışdı. Adıgedən dövrdə ölkəmizdə üzümçülük və şərabçılığın intensiv inkişaf etdirilməsində yerli üzüm sortları ilə yanaşı, introduksiya olunmuş üzüm sortlarının da rolu böyük olmuşdur. Azərbaycanda tarixən 300-dən çox yerli və 200-ə yaxın digər ölkələrdən gətirilmiş sortdan ibarət üzüm genefondu formalaşmışdır. Rəsmi məlumatlara görə, XX əsrin 80-ci illərində Azərbaycandakı üzümlüklərin əkin sahəsi altındakı ərazilərin təxminən 55%-i yerli (Bayanşirə – 35,9%, Mədrəsə – 16,4%, Həməşərə – 10,6%, Xindoqnı – 4,1%, Təbrizi – 3,4%, Mələyi – 2,4%, Ağ şanı, Qara şanı – 1,5%, Şirvanşahı – 0,8%, Kişmiş sortları – 0,3%), 45%-ə qədəri isə introduksiya olunmuş (Rkasiteli – 35,9%; Tavkveri – 1,3%; Kaberne – 1,3%; Terbaş – 0,6%; Reyn rislinqi – 0,6%; Ağ fetyaska – 0,4%; Aliqote – 0,2%; Pino – 0,1%; İzabella – 0,1%; Qaraburnu – 0,9%; Ağadayı – 0,8%; Kardinal – 0,4%; Şasla – 0,4% və s.) üzüm sortlarının payına düşürdü. Bu vaxtlar Azərbaycanın demək olar ki, bütün rayonlarında üzümçülüyün inkişafı böyük vüsət tapmış, qiymətli yerli və introduksiya olunmuş sortlar müvəffəqiyyətlə becərilirdi.

Ulu Öndərin təşəbbüskarı olduğu bütün bu tədbirlərin həyata keçirilməsi ölkəmizin zəngin üzüm sortimentinin qorunub saxlanmasına və qiymətli sortların introduksiyası yolu ilə zənginləşdirilməsinə xidmət etmişdir. Əldə edilmiş baza hər bir iqtisadi rayonun, o cümlədən işğaldan azad olunmuş ərazilərin torpaq-iqlim şəraitinə uyğun sortlar tövsiyə etməklə, üzümçülüyün elmi əsaslarla inkişaf etdirilməsinə imkan verir.